# “Bundan böyük xoşbəxtlik ola bilməz”

## “200 il müddətində Azərbaycana qarşı ermənilər üzərindən icra edilən siyasət sındırıldı, durduruldu”

**Azərbaycan xalqı Ordumuzun böyük rəşadəti sayəsində torpaqlarımızın erməni işğalından azad olunmasının sevincini yaşayır. Qaçqın və məcburi köçkünlərimiz 30 il əvvəl itirdikləri doğma yurd-yuvalarına qayıdacaqları günü gözləyirlər. Bütün xalqımız onların fərəhini, böyük Qələbənin sevincini bölüşür.**

### HƏM HƏRB MEYDANINDA, HƏM DƏ SÜLH YOLU İLƏ

**Milli Məclisin deputatı Ceyhun Məmmədov** qeyd edir ki, bu gün Azərbaycan ən şərəfli günlərindən birini yaşayır. Belə ki, xalqımız illərdən bəri səbirsizliklə bu günü gözləyirdi: ”Xalqımız



torpaqlarımızın geri qayıtmasını bayram edir. Bu gün bizim üçün ən böyük bayramdır. Azərbaycan artıq qalan əraziləri sülh yolu ilə əldə edəcək. Bir müddət əvvəl isə hərb meydanında torpaqlarımızı geri qaytardıq. Bu onu göstərir ki, Azərbaycan dövləti həm hərb meydanında, həm də diplomatiya yolu ilə uğurunu tamamladı. Bu, Azərbaycan xalqının böyük uğurunun göstəricisidir. Tarix boyu Azərbaycan, torpaqlarının itirilməsi ilə üzləşib. Bu gün isə Azərbaycan, torpaqlarının qaytarılması ilə bağlı tarixi bir günü yaşayır. Bu, həqiqətən böyük bayramdır. Əsas məsələlərdən biri də müharibə dövründə nümayiş etdirdiyimiz birlik və həmrəyliyi qorumaqdır. Biz bu qələbəyə birlik və həmrəyliklə nail olmuşuq. Hamı da çalışmalıdır ki, bu birliyi qorumaq üçün bütün gücünü səfərbər etsin”.

### DÜNYA HƏRB ELMİNDƏ YENİ SƏHİFƏ

**Mətbuat Şurasının sədr müavini, media eksperti Müşfiq Ələsgərlinin** fikrincə, Azərbaycan 44 günlük müharibə ilə dünyaya yeni standartlar gətirib: ”44 günlük müharibənin zahiri, ilk baxışdan görünən nəticələri var, bir də zahirən qabarıq görünməyən, reallıqda isə milli dirçəlişlə, milli istiqballa bağlı olan tərəfləri var. Zahiri görünüş budur ki, Azərbaycan 44 günlük müharibədən tam qələbə ilə çıxdı, Ermənistan kapitulyasiyaya məcbur edildi. Bu qısa dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4



qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu; düşmənin hərbi texnikası tam məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi, atəşkəs ərəfəsində artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq




dəstələri xatırladırdı. Dağlıq Qarabağın status məsələsi gündəmdən çıxarıldı, arxivə getdi, Dağlıq Qarabağda yeni erməni dövlətinin yaradılması planları pozuldu. Xatırlamaq lazımdır ki, danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan razılaşma variantlarının Azərbaycan üçün ən sərfəli variantı belə hazırda ölkəmizin əldə etdiyi üstünlüklə müqayisə edilə bilməz. 30 illik sülh danışıqları prosesində hər vəchlə Ermənistanın maraqlarının təmin edilməsinə cəhdlər olunurdu, Azərbaycan Silahlı Qüvvələrinin keçmiş DQMV-nə, o cümlədən Şuşa şəhərinə girməsi, ümumiyyətlə, yaxın buraxılmırdı. Hətta keçmiş Şaumyan, indiki Goranboy rayonunun bir hissəsinin ermənilərin nəzarətinə verilməsi tələb edilirdi”. Media eksperti bildirir ki, 27 sentyabrda başlanan əks-hücum əməliyyatları ilə Azərbaycan Prezidenti yeni reallıq yaratdı. Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardıca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Amma bütün bunlar 44 günlük müharibənin zahiri, ilk baxışdan görünən tərəfləridir. Bu dövr ərzində Azərbaycan Prezidentinin sərištəli proqramları üzrə çox ciddi proseslər baş verdi. 44 gün müddətində dünya hərb elmində yeni səhifə açıldı, son 100 ilin hərbi standartlarında dəyişiklik edildi, dünya hərb sənətinə yeni taktika, yeni strategiya gətirildi; son 75 il müddətində dünya düzənini ədalətsizcəsinə müəyyən edən, BMT Təhlükəsizlik Şurası üzərindən icra edilən maxinasiyalar ifşa edildi, Azərbaycan Prezidenti bu siyasətə qarşı olanları, xüsusən, Qoşulmama Hərəkatının üzv dövlətlərini birləşdirib, təşkilatlandırıb ortaya yeni güc mərkəzi qoymağı bacardı, BMT Təhlükəsizlik Şurasının ədalətsiz davranışının qarşısını ala bildi. 200 il müddətində Azərbaycana qarşı ermənilər üzərindən icra edilən siyasət sındırıldı, durduruldu, ilk dəfə geri hərəkət başladı. 200 il idi ki, ermənilər qazanaraq, azərbaycanlılar isə itirərək gəlirdilər. İlk dəfə bu proses geri çevrildi”.

### BU GÜNLƏRİ GÖRMƏK XOŞDUR

**Yazar Səxavət Sahil** Qələbə sevincini ifadə etməyin çətin olduğunu deyir: ”30 ilə yaxın bir müddətdə işğalda qalan torpaqların azad olunması sevinc və fərəh hissləri yaşadır mənə. Qələbə sevincini bir sözlə və ya bir cümlə ilə ifadə etmək mümkün deyil, yetərsizdir.




Düşünürəm, hansı sözü, ifadəni seçim ki, sevincimi bütünlüklə ifadə etmiş olum”. Yazarın fikrincə, əzəli ata-baba yurdumuzun işğaldan qurtulması, orda yaşayan məcburi köçkünlərin öz doğma evlərinə dönməsi yaxın tariximizin əhəmiyyətli hadisələrindən biridir: ”Digər tərəfdən, həm də ona görə sevinclidir ki, bu torpaqlar uğrunda gedən döyüşlərdə neçə-neçə qəhrəmanlarımız, igid əsgərlərimiz şəhid olub, onların da ruhu şad olur, qanları yerdə qalmır. Qələbənin həyatımıza, gələcəyimizə də böyük təsiri olacaq. Mənə bir yazıçı, bir vətəndaş kimi qələbə sevincini yaşamaq, bu günləri görmək olduqca xoşdur”.

### ƏN BÖYÜK QƏLƏBƏMİZİ QAZANDIQ

**Yazar-jurnalist Ülviyyə Heydərova** bütün uşaqlığının müharibə içərisində keçdiyini deyir: ”30 ilə yaxın müharibə şəraiti davam etdi. Torpaqlarımız işğal-



da qaldı. İnsanlarımız köçkün və qaçqın oldu. Xocalı faciəsini, 20 Yanvar hadisələrini gördük. Qarabağla sərhəd ərazilərdən tez-tez şəhidlər gəldi. 20 Yanvar faciəsi baş verəndə mən 2-ci sinifdə, Xocalı soyqırımı törədiləndə 4-cü sinifdə oxuyurdum. Biz müharibə ilə böyüdük. Uşaqlığımız olmadı. Biz boynubükük, gözükölgəli idik - çünki torpaqlarımız düşmən işğalında idi. Bundan sonra hər şey dəyişəcək. Bu qələbə o torpaqları təkcə azad etmədi, həm də yeni həyat gətirəcək. Bu, inanılmaz qələbə idi. 44 gün mənə yuxu kimi gəldi. Amma bu yuxu deyil, gerçəklikdir. Ən böyük tarixi əsgərlərimiz, Ali Baş Komandan yazdı. Böyük şücaət göstərdilər. Xəbəri eşidəndə sevincdən hönkürdüm. Bir gün əvvəl Şuşanın alınmasını bayram etdik, daha sonra ən böyük qələbəmizi qazandıq. Sanki yuxudayam”. Jurnalist deyir ki, bir gün Şuşaya, işğaldan azad olunan digər yerlərə gedib mədəniyyət hadisələrini işıqlandıracaq: ”Bilirsinizmi bu nə deməkdir? Mən bundan böyük sevinc və xoşbəxtlik təsəvvür eləmirəm. Bu, möcüzədir. O rayonlarda, kəndlərdə, qəsəbələrdə indi Azərbaycanın üçrəngli bayrağı dalğalanır. İnsanlar tezliklə doğma yurdlarına qayıdacaqlar. 30 ildən sonra oralarda həyat yenidən canlanır. Uşaqlar o yerlərdə məktəbə gedəcəklər. Hə evdən işıq gələcək. İnsanlar öz torpaqlarında iş-güclə məşğul olacaqlar. İnsanların torpaq nisgili bitdi. Bu sevinci bizə yaşadanlara həmişə minnətdarıq. Başda Ali Baş Komandan olmaqla bu inanılmaz qələbəni gerçəkləşdirənlərə həmişə borcluyuq. Əsgərlərimiz canları, qanları ilə bu qələbəyə imza atdılar. Rəşadətli ordumuzun sayəsində Azərbaycan xalqı 30 ildən sonra qələbə müjdəsini daddı. Hamı özünü qürurlu və xoşbəxt hiss edir. Bizim üçün bundan böyük sevinc və xoşbəxtlik ola bilməz”.

**Təranə**